Dövlətzadə Məhrux Əfsəraga qızı

A.DİVANBƏYOĞLUNUN "ƏBDÜL VƏ ŞAHZADƏ" ƏSƏRİNDƏ MÜƏLLİFİN MAARİFÇİ DÜNYAGÖRÜŞÜNÜN BƏDİİ İFADƏSO

XX əsrin əvvəlləri Azərbaycan bədii nəsrində Abdulla bəy Divanbəyoğlunun əhəmiyyətli mövqeyi vardır. Onu bir nasir kimi geniş oxucu kütləsinə tanıdan və sevdirən "Can yanğısı" əsəri olmuşdur. Yazıçının yaradıcılığında tədqiqatçıların da diqqətini ən çox bu əsər çəkmişdir. Ədəbiyyat tariximizdə yazıçının mövqeyi əsasən bu əsərlə müəyyən olunur. Ədəbiyyat tarixi və dərsliklərdə onun "İlan", "Fəhlə", "Ərdoy dərəsi", "Cəng", "Parlaq ulduz" adlı hekayələrinin, "Əbdül və Şahzadə" povestinin də adlarının çəkilməsinə baxmayaraq A.Divanbəyoğlunun sənətkar "mən"inin müəyyənləşməsində "Can yanğısı"na həlledici yer verilir. Fikrimizcə, bunun bir səbəbi onun yüksək sənətkarlıqla yazılmasıdırsa, digər səbəbi də "Can yanğısı"nın ədəbiyyat tariximizə sentimental nəsr nümunəsi kimi daxil olmasıdır. A.Divanbəyoğlu yaradıcılığında oxuculara ən az məlum olan və tədqiqatçıların haqqında nadir hallarda, həm də epizodik şəkildə danışdıqları əsər "Əbdül və Şahzadə"dir. Olsun ki, əsərin geniş oxucu kütləsi arasında "Can yanğısı" qədər tanınmamasında rus dilində yazılması və dilimizə xeyli sonralar tərcümə edilərək nəşr edilməsi də səbəb olmuşdur.

"Əbdül və Şahzadə" müəllifin bədii yaradıcılığının ilk illərində (1902) qələmə alınmışdır. Bədii-sənətkarlıq cəhətdən mükəmməl təsir bağışlayan "Əbdül və Şahzadə" müəllifin ən iri həcmli bədii əsəridir. Yeri gəlmişkən, onu da qeyd edək ki, ədəbiyyatşünaslığımızda "Can yanğısı"nın roman, "Əbdül və Şahzadə"nin isə povest kimi təqdim edilməsində mübahisə üçün kifayət qədər yer var. Həcminin "Can yanğısı"ndan böyüklüyünü nəzərə almasaq belə, "Əbdül və Şahzadə" ideya-məzmun və problematikasının genişliyi, cəmiyyət hadisələrini daha əhatəli şəkildə öz içərisinə alması nöqteyi-nəzərindən seçilir və fikrimizcə, bu əsəri XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan miniatür romanlar silsiləsinə daxil etməyə tam əsas verir.

Əslində, yazıçı dünyagörüşünün bədii ifadəsi, mövzu və problematika baxımından "Can yanğısı" və "Əbdül və Şahzadə" bir-birinin davamı olaraq meydana çıxmışdır. Tədqiqatlarda qeyd olunur ki, "sənətkarın yaradıcılığında Azərbaycan qadınlarının azadlıq problemləri əsas yer tutur. Bir çox insani hüquqladan məhrum edilmiş anaların, bacıların taleyi Divanbəyoğlunu həmişə düşündürmüşdür. Ədib onların ictimai həyatın önündə, kişilərlə bərabər durmasını arzulamışdır" (1,s.45). A.Divanbəyoğlu özü də qeyd edir ki, Azərbaycan qadınlarının taleyi onu ömrü boyu düşündürmüşdür. Sözün həqiqi mənasında, A.Divanbəyoğlunu XX əsrin əvvəllərində Azərbaycanın ictimai və ədəbi-mədəni mühitində feminizmin əsas nümayəndəsi hesab etmək olar. Gender məsələsi heç bir sənətkarı A.Divanbəyoğlu qədər ardıcıl və davamlı düşündürməmişdir. Milli cəmiyyətdə gender probleminə verilən bədii həll baxımından "Can yanğısı" və "Əbdül və Şahzadə" əsərləri xüsusilə seçilir. "Can yanğısı" bədii planda, "Əbdül və Şahzadə" isə bədii-publisistik planda yazılmış əsərdir.

Tədqiqatlarda "Can yanğısı"nın sentimental əsər kimi yazılması, demək olar ki, mübahisə doğurmur. Ancaq "Əbdül və Şahzadə"dən söhbət gedəndə onun hansı "izm"də yazılması adətən arxa plana keçirilir. Elə isə "Əbdül və Şahzadə" hansı "izm"də, hansı yaradıcılıq metodunda yazılmışdır? Heç şübhəsiz ki, cüzi zaman fərqi ilə yazılmış bu əsərlərdə bədii inikas üsulunun xarakterində bir-birini tamamlayan kifayət qədər cəhətlər var. Nəzəriyyə kitablarında sentimentalizmin əsas əlamətlərindın biri kimi aşağıdakı cəhətə xüsusi diqqət yetirilir: "Sentimentalistlərin əsərlərində tendensiya çox aydındır. Onlar nəciblə kobudu, pak adamla əxlaqsızı, sadədil və səmimi insanla hiyləgəri açıq-aşkar üz-üzə qoyur, pis adamların nəcib şəxslərə etdiyi pisliyi, kobudluğu göstərirlər" (2,s.226). Əslində sentimentalizmin bu və bu kimi digər nəzəri prinsipləri baxımından "Can yanğısı" və "Əbdül və Şahzadə" eyni tipli əsərlərdir. Bununla bərabər, sentimental poetika baxımından "Can yanğısı" daha çox diqqəti çəkirsə, "Əbdül və Şahzadə"də sentimental elementlər maarifçi realizmin poetikası daxilindədir. Burada ziddiyyət varmı? Fikrimizcə yoxdur. Əgər klassizmlə sentimentalizm haqqında demək olarsa ki, onlar poetik antiqütblər kimi yaranmışdır və sentimentalizm klassizmi rədd edərək formalaşmışdır, sentimentalizmlə maarifçi realizm haqqında bunu demək olmaz. Tədqiqatlarda özünə yer alan bir fikir xüsusi maraq doğurur ki, sentimentalizm maarifçi realizmdən törəmədir, onun inkişafında xüsusi bir mərhələdir. Tədqiqatlarda oxuyuruq: "İngilis maarifçilik ədəbiyyatı üç mərhələ keçirmişdir: 1 – Erkən maarifçilik; 2 – Yetkin maarifçilik; 3-cu mərhələ XVIII əsrin son onilliyini əhatə edir. Bu dövrdə sentimentalizm əsas yer tutur" (3,s.11). Rus ədəbiyyatşünası P.A.Orlov isə bu məsələni belə şərh edir: "Sentimentalizmin uğurları çox sıx surətdə rus maarifçiliyinin taleyilə bağlıdır. Bu isə həmin illərdə Fransa inqilabının təsirilə xüsusilə canlanmışdır... İctimai həyatda canlanma maarifçi düşüncənin inkişafına təsir göstərmişdi ki, bu da öz növbəsində tezliklə öz əksini sentimental ədəbiyyatda tapmışdır" (П.А.Орлов. Русский сентиментализм. М., 1977, с. 144) (4,s.34-35).

Deməli, A.Divanbəyoğlunun "Əbdül və Şahzadə" əsərində sentimental məzmun və xarakterin maarifçi dünyagörüşü ilə və maarifçi realizmin strukturunda inikası bədii qanunauyğunluq kimi təzahür edir.

Əsərin sentimental və maarifçi məzmunu mövzunun xarakterindən irəli gəlir. Qadın problemi öz hissi məzmunu ilə sentimentalizmə, insani hüquqlar kontekstində isə maarifçi realizmə doğmadır. Sentimentalizm əsərdə hissi varlığı, maarifçi xətt isə əqli mühakiməni önə çəkir. Bədii inikasın ikili xarakteri ən adi insani hüquqlardan məhrum qadını göz yaşları içində boğulan vəziyyətdə və intihara gedən yolda təsvir predmetinə çevirməyə, başqa sözlə, əsərə sentimental xarakter verməyə, müəllifin mövqeyi və müəllif mövqeyinin ifadəçisi olan obrazın əqli mühakimələri qadınları öz hüquqları uğrunda mübarizə prosesinə cəlb etməyhə, başqa sözlə, maarifçi xətti reallaşdırmağa imkan verir.

"Sentimentalistlər üçün hissiyyata pərəstiş əsas yer tutur" (3,s.51). "Əbdül və Şahzadə"nin qadın qəhrəmanları bütövlükdə "hissiyata pərəstiş"in ağuşundadırlar. Onlar qarşısıalınmaz bir duyğu, bütün varlıqları ilə sevdikləri insana qovuşmağı həyatlarının mənası hesab edir, bu yolda ölümə qədər getməkdən çəkinmirlər. Nigarı "ağır çiçək xəstəliyi keçirmiş" varlı mülkədar oğlu Əhməd bəyə zorla nişanlamaq istəyirlər, o isə sevdiyi Murad bəyə qoşulub gedir. Yolda quldurlara rast gəlirlər, hər ikisi məhv olur.

Şahzadə atası Qeys bəyin iradəsinə zidd olaraq Əbdülü sevir, həyat yollarında onunla qoşa addımlamaq istəyir, lakin atasının gülləsi ilə ölür. Bu qəhrəmanlar ölümlərinə razı olurlar, lakin hisslərini boğub məhv etmək haqqında düşünmək belə istəmirlər. Nisə sevdiyi Sultana düşdükləri ağır vəziyyətdən çıxmaq üçün bir-birinə qoşulub getməyi təklif edəndə varlığını saran hisslərdən çıxış edir. Lakin bu ehtiras deyil, qadını ölüm təhlükəsi qarşısında məğrur dayanmağa sövq edən sevgi odudur. Nisə deyir: " – Sultan, əmr et, mən hər şeyi yerinə yetirməyə hazıram.Mən valideynlərimə rəhm etməyəcəyəm. Mən səni sevmişəm və səninlə birlikdə qalmaq istəyirəm" (5,s.59). Müəllif öz qəhrəmanlarını, ilk növbədə, təbii varlıq kimi təsvir edir. Onun birini sevmək, onunla qovuşmaq haqqı vardır. Bu insanın tam təbii bir ehtiyacıdır. Lakin A.Divanbəyoğlunun yaşadığı

və təsvir etdiyi cəmiyyətdə, əksər hallarda bu hüquq qadınların əlindən alınır. Müəllif də, onun maarifçi qəhrəmanı Əbdül də, özünü dərk edən qadın qəhrəmanları da bu hüquqlar uğruinda mübarizə aparırlar. Əgər müəllif və marrifçi qəhrəman bunu şüurlu şəkildə və dərk edərək gerçəkləşdirməyə çalışırlarsa, qadın qəhrəmanlar öz təbii istəkləri uğrunda mübarizə ilə bu yola düşürlər.

Sentimentalizmin poetikası sadədir. Burada qütblər birmənalıdır. Konfliktin tərəfləri və səciyyəsi də tam aydındır. Rus və Ukrayna ədəbiyyatında sentimentalizmin təzahür xüsusiyyətlərindən danışan prof. P.Xəlilov yazır: "Rus və Ukrayna ədəbiyyatında sentimentalist yazıçılar maarifçi-dvoryan ziyalılarından ibarət olmuşdur... Onlar silki nəcabəti ilə öyünən cahil, kütbeyin, kobud dvoryanları tənqid edir, yoxsulun mənəvi ləyaqətini dərin rəğbətlə qələmə alır..." (2,s.227).

Sentimentalizmdə bədii konfliktin ənənəvi antiqütblərini prof. T.Məmməd daha universal şəkildə ümumiləşdirir: "Sentimentalizmdə isə cəmiyyətin kobud, insan sevgisindən məhrum, humanizm duyğusu olmayan insanları aşiqin iztirablarına, sevdiyindən uzaq qalmasına səbəb olur" (6,s.31).

Bu nəzəri postulatlar baxımından "Əbdül və Şahzadə"yə nəzər yetirsək, "cəmiyyətin kobud, insan sevgisindən məhrum, humanizm duyğusu olmayan insanları" sırasında birinci yeri Qeys bəyə vermək lazım gəlir. Mirzə Mehdi bəy və qismən də Rüstəm bəy Qədirov da bu sırada yer alır. Şərq ədəbiyyat, o cümlədən milli ədəbiyyat kontesktində bu qütbün kobudluğunu, "insan sevgisindən məhrum"luğunu dünyagörüşünün darlığı və mühafizəkarlığı yaradır; bu dünyagörüş darlığı və mühafizəkarlığı ən çox qadına münasibətdə meydana çıxır. Öz mühafizəkar baxışları ilə iki gənc qızının ölümünə səbəb olan Qeys bəyin düşüncələri belədir: "Qədim ərəblər bu qadınları gözəl tanıyırdılar. Allah kimi cəzalandırmaq istəyirsə, ona qız verir... Gərək indi də qızları diri-diri torpağa basdırmaq adəti olaydı. Mən birinci olaraq Şahzadəni basdırardım və heç hayıfım gəlməzdi..." (5,s.96).

Müəllifin tənqidi heç bir insani münasibət çərçivəsinə sığmayan bu baxış sisteminə qarşı çevrilir. Mina, Nigar, Nisə, Şahzadənin taleyində və Şərq tarixinə ekskurslar nəticəsində ağır tale yaşayan qadınların həyatından gətirilən misallarda bədii konfliktin əks qütbündə dayanan insanların – qadınların çəkilməsi mümkün olmayan məşəqqətlərə düçar olmasına dərin təəssüf hissi, ürək ağrısı və vətəndaş yanğısı ilə yanaşılır. Və məhz bu cəhət – "bəlaya mübtəla olan təmiz qəlbli, nəcib qızların acı taleyinə təəssüf oyatmaq" (2,s.229) "Əbdül və Şahzadə"də "sentimentalizmin bir xüsusiyyəti", bəlkə də, belə demək olar ki, ən qabarıq xüsusiyyəti kimi meydana çıxır. Lakin məsələyə ümumdunya ədəbiyyatı kontesktində yanaşsaq, nəzərə almalıyıq ki, sentimentalizm bir ədəbi cərəyan olaraq XVIII əsr hadisəsidir. XX əsr müəllifinin XVIII əsrin ədəbi cərəyanının estetik prinsiplərinə qeyd-şərtsiz əməl etməsi prinsip etibarı ilə mümkün deyildir. "Əbdül və Şahzadə"də sentimentalizmin estetik prinsipləri ilə XX əsrin əvvəllərinin maarifçi realizm estetikasının vəhdətdə çıxış etməsi əsərin mövzu və problematikasını, müəllifin nəzərdə tutduğu ideyanı gerçəkləşdirmək istəyindən güc alır. Buna görə də əsərin poetikasında maarifçi realizm elementləri get-gedə qüvvətlənir.

Məlum olduğu kimi, maarifçi realizmdə açıq tendensiyalılıq əsas estetik prinsiplərdən sayılır. Lakin açıq tendensiyalılıq sentimentalizmə də yad keyfiyyət deyildir. "Sentimentalistlərin əsərlərində tendensiya çox aydındır" (2,s.226) kimi nəzəri postulat elmi fikirdə kifayət qədər geniuş yayılmışdır. Bununla belə, maarifçi realizmin açıq tendensiyalıq prinsipilə sentimentalizmdəki tendensiyanın aydınlığı məsələsi heç də eyni xarakterli deyil. Sentimentalizmdə bu bədii konfliktdə antiqütblülüyü ilə və müəllifin birmənalı şəkildə qütblərdən birinin tərəfində dayanması ilə təzahür edir. "Sentimentalistlərin də yaradıcılığında sadə adamların həyatından bəhs edərkən kədərli notların, qəlb aləminin dərinliklərinin, psixoloji ovqatın təqdimində, təsvirində müəllif intonasiyası əsas rol oynayır. Müəllif intonasiyası əsərin tendensiyasının, məramının açıqlanmasında, məzmunun dərkində müstəsna rol oynayır" (4,s.15). Lakin maarifçi realizmdə açıq tendensiyalığın estetik prinsip rolunda çıxışı sentimentalizmdəki keyfiyyətləri də özündə ehtiva etməklə bərabər, daha çox müəllif ideyalarının ruporu kimi çıxış edən müsbət qəhrəmanda - ziyalı obrazında təzahür edir. Maarifçi realist ədəbiyyatda Fəxrəddin (N.Vəzirov. "Müsibəti-Fəxrəddin"), Fərhad (Ə.Haqverdiyev. "Dağılan tifaq"), Şeyda bəy (S.M.Qənizadə. Məktubati-Şeyda bəy Şirvani) obrazları bu baxımdan məşhurdur. "Əbdül və Şahzadə"dəki Əbdül obrazı da əsərə maarifçi ziyalı obrazı olaraq daxil olur və müəllif ideyasının ruporu rolunda çıxış edir. Sentimentalizmdə süjeti hissi təsvir hərəkətə gətirir: "Sentimentalistlər insan zəkasının gücünə də inanmırlar. Onlar ağlın, idrakın əvəzinə hissiyyatı irəli sürürlər" (3,s.51). Sentimentalizmin ənənəvi estetikası baxımından bu ümumiləşdirmə ilə razılaşmamaq mümkün deyildir. Lakin yeni dövrün ədəbiyyatında hər şeyi hissiyyatın ixtiyarına buraxmaq tendensiyası qəbul olunmur. İnsanın insanlığını şərtləndirən amillər sırasında hissiyyata böyük önəm verilir, lakin ağıldan kənar hissiyyat qəbul olunmur. Yeni dövrün maarifçiləri hissiyyata ağılın nəzarəti tendensiyasını irəli sürürlər. "Əbdül və Şahzadə"də bu estetik funksiyanın yerinə yetirilməsi Əbdül obrazının üzərinə düşür. Əsərdə süjet elə qurulmuşdur ki, Əbdül bütün qadın qəhrəmanlarla ünsiyyətdə ola bilir. Çətin vəziyyətə düşən bu qadınlar ondan kömək istədikdə Əbdül çox ağıl işlətməyi, hissiyyata qapılmamağı, düşünüb hərəkət etməyi tövsiyə edir. Ümumiyyətlə, əsərdə "bütün çətin vəziyyətlərdən çıxmaq üçün bir əsas yol vardır – ağılın gücünə inam"tezisi bir konsepsiya şəklində, müəllif ideyasının mahiyyəti kimi çıxış edir. Elmi ədəbiyyatda oxuyuruq: "Maarifçiliyin açar nöqtəsi ağıldır. İ.Kant cəmiyyəti və fərdləri hər şeyi ağıl süzgəcindən keçirməyə dəvət edir: "Öz ağlından istifadə etmə cəsarəti göstər", deyir" (6,s.39). Maarifçiliyin ağıla "açar nöqtəsi" kimi yanaşmasının - "ənənəvi olan hər şeyə ağılla yanaşıb, onu dəyişdirməyə" və ağlın normalarına uyğunlaşdırmağa çalışmasının (6,s.39) "Əbdül və Şahzadə"də Əbdülün dilindən səslənən açılışı belədir: "İnsan gördüyü kimi hərəkət etməməli, yəni qurdların, şirlərin, vəhşi quşların və həşəratların hücumunu yamsılamamalı, özünün dərin zəkasının göstərdiyi kimi hərəkət etməlidir" (5,s.17). Məsələyə bu estetik baxışda ağıl insanı digər canlılardan fərqləndirən xüsusiyyət kimi təqdim edilir. Maraqlıdır ki, Əbdülün dililə müəllif bu mesajı bədii konfliktin hər iki qütbünə ötürür. Məsələnin bu tərəfi əsərdə ancaq publisistik ifadəsini tapmır. Müəllif bu tövsiyyəni bədii konsepsiya kimi nəzərdə tutaraq obrazların taleyində əks etdirir. Qeys bəyin hərəkətləri heyvanların hərəkətlərini yamsılama kontekstində, ancaq hissiyyata və ehtirasa qapılaraq hərəkət etmək kimi dəyərləndirilir. Nəticə etibarı ilə onun öz ailəsini bədbəxt etməsində ağıla istinadsızlığın törətdiyi faciələr ümumiləşdirilir. Nigarın, Şahzadənin də taleyinin faciə ilə nəticələnməsi müəllif mövqeyində ancaq ictimai münasibətlər kontekstində, qadın hüquqsuzluğu nöqteyi-nəzərindən izah olunmur, həm də qəhrəmanların instiktiv – hissiyyata qapılaraq hərəkət etmələri, öz hisslərini ağlın gücünə tabe etməmələri ilə də izah olunur.

Tədqiqatlar sübut edir ki, "maarifçi realizm açıq tendensiyaya malik yaradıcılıq metodudur... Açıq tendensiya maarifçilərin yaradıcılığı üçün o qədər xarakterik cəhət idi ki, o hətta onların əsərlərinin süjet-kompozisiyasına təsir göstərir, bütün bədii vasitələr sənətkarın başlıca ideyasının qabarıq surətdə verilməsinə kömək edir" (7,s.40).

"Əbdül və Şahzadə"povestində "sənətkarın başlıca ideyası" Ağlın gücünə inam təlqin etməklə ifadə olunur. Müəllifə görə, insanın insanlığını daim irəliyə doğru hərəkət şərtləndirir. A.Divanbəyoğlu insanı "irəli getməyə və parlamağa məcbur edən" daxili qüvvəyə "şöhrətpərəstlik" adı verir (sözün yaxşı mənasında). Əbdülün dililə şöhrətpərəstliyin səmərəli nəticə verməsinin əsas şərti kimi isə Ağılı önə çəkir: "O (insanı irəli getməyə və parlamağa məcbur edən qüvvə ) ağlın gücüdür, ağıl olduqda isə qüsura yer yoxdur" (5,s.16).

Müəllif şöhrətpərəstliyi mühafizəkarlığa qarşı qoyur. Burada "şöhrətpərəstlik" anlayışı zamanın tələblərinə uyğunlaşmaq, dəyişən zamanın hərəkət məntiqini düzgün müəyyənləşdirmək kimi başa düşülür. Bu məntiqin düzgün tutulmasında isə ağıla birinci yer verilir. Yalnız ağıl vasitəsilə insan pisi yaxşıdan, zəruri olanı zəruri olmayandan ayıra bilər - düşüncəsi povestdə qırmızı bir xətlə keçir. Mühafizəkarlıq insanın ağla istinadını məhdudlaşdıran, buna görə də baş verən hadisələrə zamanın gerçəkləri kontekstində qiymət verməyə mane olan psixoloji bir qüvvə kimi təqdim edilir. Əbdül düşünür: "Yazıq Nigarın bədbəxtliyinə səbəb kimdir? Asiyanın həqiqi ruhunu mənimsəyən günahkar doğma ata Qeys bəydir. Nigarın atası mühafizəkarlığın quludur" (5,s.94). Bununla bərabər, müəllif nə aparıcı qəhrəmanın düşüncələrində, nə də baş verən hadisələrin hərəkət xəttində bizi pessimist düşüncələrə kökləmir. Povestdə süjetin hərəkət xətti maarifçi estetikaya tam uyğun şəkildə daim müəllif nəzarəti altındadır. Müəllif Asiya ruhunu (və eyni zamanda milli ruhu) ancaq Qeys bəylərlə məhdudlaşdırmır. Mühafizəkarlığın qulu olan insanlarla yanaşı, şərq mühitində real düşünə bilən, zamanın məntiqini tuta bilən adamların – ataların da olduğuna diqqət çəkir.

Qeys bəyin bacısı qızı Məryəm (əsl adı Pərizad olan bu qıza qızılı saçlarına görə Məryəm deyirdilər) əmisioğlu Şamili sevir. Şamil təhsilli idi və əmisi qızına da savad öyrətmişdi. Şamilin ata-anası elçiliyə gedəndə:

"Şamilin əmisi, Məryəmin atası deyirdi:

–Ay səni, bic, Məryəmi özü üçün oxutmusan? Eybi yoxdur, mən sizin birləşməyinizə ürəkdən xeyir-dua verirəm" (5,s.110). Məryəmin atası Nigarın və Şahzadənin atası Qeys bəyə qarşı qoyulmuş bir obrazdır. O, ağlı, düşüncəni, dəyişən zamanın məntiqinə görə hərəkət etməyi bacaran insanı simvollaşdırır. Müəllif Qeys bəyin bütün varlığını müəyyənləşdirən mühafizəkarlığına qarşı Məryəmin atasının "iti ağlı"nı qoyur. Zamanın insanının xoşbəxtliyin yolunu bu "açar"la tapacağına inamını ifadə edir: "Məryəmin atası savadlı deyildi, lakin buna baxmayaraq savadlı adamlar arasında olmağı və onların söhbətinə qulaq asmağı sevirdi. Kişini hər yerdə qəbul edib, onunla həvəslə söhbət edirdilər. Ona müxtəlif məlumatlar verirdilər. O, bu və ya digər məsələ barəsində öz fikrini söyləyirdi, bu fikirlər həmişə doğru olurdu. Onun iti ağlı vardı, yalnız müntəzəm təhsili çatmırdı" (5,s.111).

Müəllif mövqeyinin ifadəsi kimi səslənən bu mülahizələr - A.Divanbəyoğlunun dünyagörüşündə ön plana çıxan ağılla elmin, təhsilin vəhdətdə təzahürü ideyası Şərq dünyasını "qaranlıqdan işığa" çıxaracaq ən perspektivli yol kimi düşünülürdü.

İstifadə olunmuş ədəbiyyat

1.Bəktaşi İ. Müəllif haqqında söz (Ön söz). / A.Divanbəyoğlu. Can yanğısı. Bakı. Yazıçı, 1981.
2.Mir Cəlal. P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı. Maarif. 1988.
3.Şıxlı İ. Tahirli M.Ə., Həyatzadə M.B. XVIII əsr xarici ədəbiyyat tarixi. Bakı. APİ-nin nəşri, 1970.
4.Babazadə B. Azərbaycan sentimentalizmi. Bakı. Bakı Universiteti nəşr., 2003.
5.Divanbəyoğlu A. Can yanğısı. Bakı. Yazıçı, 1981.
6.Tahirə M. Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı. "Xan" nəşr., 2016.
7.Məmmədov X. XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycan maarifçi realist ədəbiyyatı. Bakı. APİ-nin nəşri, 1978.

Açar sözlər: sentimentalizm, maarifçi -realizm, müəllif mövqeyi,maarifçi qəhrəman
Key words: Sentimentalism, educator realism , position of author,educator hero
Ключевые слова: сентиментализм, просветителъский реализм, авторская позиция, герой-просветителъ

Xülasə

Məqalədə A.Divanbəyoğlunun "Əbdül və Şahzadə" əsəri həm sentimentalizm, həm də maarifçi-realizmin estetik prinsiplərini daşıyan əsər kimi təqdim olunur. Tədqiqatın ağırlığı isı əsərdə müəllifin maarifçi dünyagörüşünün bədii ifadəsini aşkarlamağa istiqamətlənir. Maarifçi realizmin estetikasında mühüm yer tutan "Ağıla istinad" prinsipinin müəllifin dünyagörüşündə və qəhrəmanlara münasibətindəki yeri aydınlaşdırılır. Əsərdə aparıcı qəhrəman –Əbdülün maarifçi düşüncələrinin müəllif mövqeyinin ifadəsindəki yerinə aydınlıq gətirilir.

Резюме

В статье произведение А.Диванбейоглы «Абдуль и Шахзаде» представляется как произведение, которое пронизано эстетическими принципами не только сентиментализма. А также просветительского реализма. Сложность исследования направлена на выявление художественного выражения просветительского мировоззрения автора. При этом раскрывается место принципа «Опора на разум» в мировоззрении автора и в отношениях героев, что занимает важнейшее место в эстетике просветительского реализма. В произведении ясность придается тому месту, что занята просветительскими мышлениями ведшего героя произведения Абдуля в процессе выражения авторской позиции.

SUMMARY

Article is devoted to study of A. Divanbayoghlu's "Abdul and Shahzada" masterpiece as a masterpiece beating the aesthetic principles of both sentimentalism and educator realism. Heaviness of the study is directed to reveal of artistic expression of educator outlook of the author in masterpiece. Place of principle "Referral to Mind" having significant place in the aesthetics of educator realism is clarified in the relation of outlook of author and heroes. Place of educator though of leading hero in the masterpiece – Abdul in the expression of the position of author has been clarified in this article.

RƏYÇİ: dps. S.Abbasova